**Unudulmaz müəllimim professor Nəsir İmanquliyev haqqında xoş sözləri ilk dəfə şair-publisist Famil Mehdidən eşitmişəm. Famil müəllim gənclik çağlarında Nəsir müəllimdən gördüyü yaxşılığı, doğmalığı daim hörmətlə yad edərdi. Famil Mehdi sonralar Nəsir müəllim tərəfindən "Bakı" qəzetinə işə götürülməsini, jurnalist kimi püxtələşməsində müəlliminin müstəsna xidmətlərini həmişə yüksək qiymətləndirərdi.**



Qismət elə gətirdi ki, mənim də mərkəzi mətbuatda ilk yazım "Bakı" qəzetində işıq üzü gördü. Bir müddət sonra Azərbaycan Dövlət Universitetinin - indiki BDU-nun jurnalistika fakültəsində oxuyarkən "Jurnalistikanın əsasları" fənnini bizə tədris edən ictimai xadim, "Bakı"-"Baku" axşam qəzetlərinin baş redaktoru, görkəmli jurnalist, tərcüməçi-alim, pedaqoq, professor Nəsir İmanquliyev oldu.

Yaxşı yadımdadır, Nəsir müəllimin lap qarşısında, birinci sırada əyləşib tədris et-

# Xeyirxah əməllər sahibi

diyi "Jurnalistikanın əsasları" fənni ilə bağlı söylədiyi muhazirələri yazır, diqqətlə onu dinləyirdim. Uca boyu, məğrur görünüşü, özünəməxsus şux qaməti ilə seçilən Nəsir müəllimin oturuşu da, duruşu da, tələbələrə olan xoş rəftarı və səmimiyyəti olduqca yüksək səviyyədə idi. Asta və aramla hərəkət edər, sakit və mülayim tərzdə davranar, sözünün əvvəlindən axırına kimi ölçülü-biçili kəlamlarını tələbələri ilə bölüşərdi. Nəsir müəllim inzibatçılıqdan, amiranəlikdən uzaq, müdrik nəzərləri, ədəb-ərkanı ilə şəxsi nümunə idi. Onda olan bu alicənablıq, heç şübhəsiz ki, məni də duyğulandırmış, həyatımda müsbət izlər qoymuşdur.

Nəsir müəllim haqqında yaddaşımda qalan xatirələrdən ayrı-ayrı məqamları oxucuların diqqətinə çatdırmağı özümə mənəvi borc bilirəm. Nəsir müəllim hər dəfə auditoriyaya daxil olarkən tələbələrinə əxlaqi-mənəvi keyfiyyətlərə əməl etməyi öyrədərdi. O, hətta otağın, binanın qapısını necə açıb-örtməyi, maşına necə əyləşməyi, oturub-durmağın incəliklərini özünəməxsus tərzdə deməkdən yorulmurdu. Özgənin gözü ilə özünə baxmağı öyrədərdi. Ən adi məişət mədəniyyətindən tutmuş incə mətləblərə qədər bizi maarifləndirərdi. Qış fəsli olduğu vaxtlarda dərs keçdiyimiz auditoriya çox soyuq olduğuna görə Nəsir müəllim paltosunu soyunub çiyninə atmazdan öncə hər dəfə bizdən, yəni tələbələrindən icazə istəyir, üzünü bizə tutaraq, "siz də çəkinməyin, içəri soyuqdur, paltonuzu çiyninizə salın", deyərək tələbələrə olan yanımcıllığını gizlətməzdi.

Universiteti bitirdikdən sonra Üzeyir Hacıbəyov küçəsindəki "Kitab evinin" qarşısında onunla tez-tez görüşər, fikirlərimizi bölüşərdik. Səhhəti ilə bağlı gileylənəndə Nəsir müəllimin yadına təbii otlardan çay dəmləyib istifadə etməyi məsləhət gördüm. Gülərək öz razılığını bildirdi - "lap unutmuşdum, yaxşı yadıma saldın", - dedi.

Elə bil hiss edib duymuşdu ki, xəstəmiz var. Məndən valideynlərimin əhvalını xəbər alar, vəziyyətimizlə maraqlanardı: - Bilirəm, yurd itkisi, torpaq dərdi çox ağır olur. Darıxmayın. Qarabağ bizim ağır dərdimizdir. Gec-tez haqq-ədalət öz yerini tapar", - deyərək təsəlli verərdi. Dəfələrlə "Kitab evinin" qarşısındakı binaya çatdıqda hər dəfə məni evə dəvət edər, "Qorxma bizim liftimiz həmişə işləyir", - deyərək zarafatından qalmazdı. Mənsə ona hər dəfə dərin təşəkkür və minnətdarlığımı bildirərdim. Açığını deyim ki, Bakıda adamı evə dəvət etmək bir o qədər dəbdə deyil. Ertəsi gün Nəsir müəllim bizə telefon etdi,kömək etmək istəyini bildirdi.

Təkcə bu faktın əsasında mübaliğəsiz demək olar ki, ülvi və bəşəri ideyaları əməli ilə yaşadan Nəsir müəllim nə qədər geniş ürək sahibi olan bir insan imiş. Bağışlamağı, mərhəməti, insanpərvərliyi və nəcibliyi özündə göstərən bir şəxs kimi Nəsir müəllimin keçdiyi ömür yolunda qarşısına çıxan bütün çətinliklərə və maneələrə baxmayaraq, o, heç vaxt öz haqq yolundan dönməyib. Neçə-neçə jurnalist nəslinin yetişməsində gərgin zəhmətini, elmini, biliyini verməkdən yorulmamışdır. Evsiz və mənzili darısqal olan ziyalıya, sadə zəhmət adamına mənzil-məişət şəraitinin yaxşılaşması üçün xeyrxahlığını əsirgəməmişdir. Nəsir müəllim əmisindən əmilik, doğmasından doğmalıq, əzizindən hörmət-izzət umanların ümid yeri olmuşdur. Arxası olmayanlara arxa olmuş, ailə həyatı quran gənclərə ağsaqqallıq, hətta elçilik də etmişdir. Belə nəcib və ülvi duyğularla yaşamaq, ömür sürmək heç də hər kəsə nəsib olmur.

**Hikmət ƏLİYEV**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**